**Nübar Mehman qızı Məmmədova** [108]

**ELİNOR PORTERİN "POLYANNA" ƏSƏRİNİN DƏRSLİKDƏ YERİ VƏ "XOŞBƏXTLİK OYUNU"NUN MƏĞZİ**

**Giriş.** Amerikalı yazıçı Elinor Porterin yaratdığı bütün əsərlərdən ən məşhuru 1913-cü ildə nəşr olunan "Polyanna" romanı oldu və mehriban, ana-atasız böyüyən qızın ədəbi obrazı ən parlaq və yaddaqalan oldu. "Polyanna" romanının yazılması ideyası 1912-ci ildə ortaya çıxdı. Baş qəhrəman, başına gələn hər şeydə yalnız yaxşı şeylər tapmağa çalışan yetim bir qızdır. Onun xoşbəxtlik formulu belə səslənir: "Hər şeydə pislik axtarırsınızsa və onu gözləyirsinizsə, onu da alacaqsınız. Yaxşılığı gözləyərkən və axtararkən isə onu mütləq tapacaqsınız". Əsərin məğzindən çıxan bu fikirlərdən görünür ki, əsərin tədrisi şagirdlər üçün xeyli faydalı olacaqdır.

**Əsas hissə.** "Evsiz uşaqlar" mövzusu ədəbiyyatda yeni deyil. Şagirdlər 7-ci sinif ədəbiyyatında Süleyman Sani Axundovun "Nurəddin", Mir Cəlalın "Bahar" əsələri ilə tanış olurlar. 7-ci sinif Azərbaycan dili dərsliyində isə "Polyanna" əsərini keçirlər. Həm ədəbiyyat, həm də Azərbaycan dili dərsliyində yaxın mövzulu əsərlərin tədrisinin eyni istiqamətlərindən bunları verə bilərik:

- Şagirdlərə mənəvi-psixoloji təsir
- Şagirdlərin analitik, tənqidi düşünmə bacarıqlarının inkişaf etdirilməsi
- Həyat ilə əlaqələndirmə
- Müqayisəli tədrisin aparılması

Mətnin salındığı bölmə "Fərd və cəmiyyət" adlanır. Müəllim üçün metodik vəsaitdə göstərilir ki, bu dərsin tədrisi üçün 3 saat zaman ayrılmışdır. Orada təqdim olunan motivasiya sualı belədir: "Hər hansı xoşagəlməz hadisə ilə qarşılaşanda nə edirsiniz?… Ruhdan düşürsünüzmü? Sizdə aqressivlik yaranırmı?" [1, s. 46]. Fikrimcə, müəllim başqa üsullardan da istifadə edə bilər. Məsələn motivasiya mərhələsində şagirdlərin diqqətini əsərə çəkmək üçün oradan ən maraqlı sitatları göstərməklə buna nail olmaq olar. Həmin sitatlardan bir neçəsini göstərək:

1) Sadəcə nəfəs almaq hələ həyat deyil! [3, s. 46]
2) "Bilmədiyiniz şeylər həmişə bilinənlərdən daha şirindir... Bu, boşqabın digər kənarındakı bir ət parçası kimi həmişə daha böyük görünür " [3, s. 108])
3) İnsanların ağılları və ürəkləri nə ilə doludursa, onu da ətrafa yayırlar [3, s. 174]

Bu sitatları şagirdlərin nəzərinə çatdırdıqdan sonra onların fikrində mövzuya giriş üçün müəyyən anlayışlar yaranacaq. Bundan sonra belə sual verilə bilər: "Sizin üçün bəs həyat nədən ibarətdir? Bu həyatda yeni məlumatlar, bacarıqlar öyrənmək nə dərəcədə vacibdir? Suallar müzakirə üsulu ilə cavablandırıldıqdan sonra mətnin oxusuna keçilir. Fasilələrlə oxu baş tutur. Mətnkənar suallar müzakirə olunur. Suallar "Fərd və cəmiyyət" bölməsinə uyğun şəkildə salınıb. Həmin suallar bunlardır: "1. Miss Polli Harrinqton və xidmətçi Nensi haqqında ilk təəssüratlarınızı söyləyin" [2, s. 23]. "2. Doğrudanmı, Polyanna xalasının onu qarşılamağa gəlmədiyinə şad idi? Bu epizoddan çıxış edərək Polyannanın xarakteri haqqında fikir yürüdün" [2, s. 24]. "3. Müəllifin miss Polliyə münasibətini əks etdirən məqamları göstərin" [2, s. 25]. "4. Nensi ilə Polyannanın bu dialoqundan sonra balaca qızın xarakteri haqqında fikirlərinizə nə əlavə olundu?" [2, s. 25] "5. Nensi nə üçün Polyannaya "Həmişə sevinmək oyunu"nu xalası ilə deyil, onunla oynamasını təklif etdi?" [2, s. 26]. Suallar vasitəsilə biz Polli xalanın, Polyannanın və Nensinin xarakterləri haqqında ümumi mənzərəni gözümüz önündə canlandıra bilirik. Hətta cədvəl quraraq onların xarakterlərini, özünəməxsus cəhətlərini vermək mümkündür:

| Polli xala | Polyanna | Nensi |
|---|---|---|
| Zəhmli | Mehriban | Mülayim |
| Ciddi | Pozitiv | Düşüncəli |
| Mühafizəkar | Açıqqəlbli | Səmimi |

Onu da qeyd edək ki, MMV-da mətnin rollar üzrə oxusu tövsiyə olunub. Fikrimizcə, ədəbiyyat dərslərində bu oxu üsulundan istifadə etmək daha məqsədəuyğundur.

Dərsin ikinci mərhələsində tədqiqatın aparılması başlanılır. Dərsin hər bir mərhələsində olduğu kimi bu mərhələdə də nəzərə alınmalıdır ki, hər bir pedaqoq yalnız müəllim deyil, həm də tərbiyəçidir. Müəllimin və yeniyetmələr kollektivinin mənəvi ümumiliyi sayəsində təlim prosesi bilik vermək qurtarmır, çoxcəhətli münasibətlərə çevrilir. V.A.Suxomlinski demişdir: "Dərs hər şeyi bilmək və əxlaqi əqidə məşəlini yandıran ilk qığılcımdır" [4, s. 120]. Bununla da müəllim dərsdə yeniyətməyə təkcə dünyanı dərk etməkdə deyil, həm də özünü dərk etməkdə kömək edən canlı nümunə olmalıdır. Belə ki, yeniyetmə yaşında insan çox şeyi başa düşməyə və ümumiləşdirməyə cəhd edir. Tədqiqatın aparılmasında da şagirdləri bu yöndə istiqamətləndirmək vacibdir. 6,7-ci çalışmalar bu hissədə işlədiləcək. Bu şagirdlərin daha da mətnin dərinliklərinə enə bilməyə yardım edir. Həmin suallar ətrafında Polyannanın əvvəlki həyatı və onun sonrakı taleyi haqqında müzakirə aparılır. 7-ci tapşırıqda şagirdlər mətnin davamını özləri fikirləşməlidirlər. Mətnin sonunda göstərilir ki, o, Elinor Porterin eyniadlı əsəri əsasında işlənmişdir. 4 səhifəlik mətn verilmişdir, lakin orada orijinal əsərdən olan bəzi əsas məqamlar: Polyannanın təsiri altında digər obrazların dəyişməsi, hər kəsin "xoşbəxtlik oyununa" qatılması, sonda Polli xalanın belə tamamilə fərqli insan olması yer almamışdır. Mətnin daha təsiredici, düşündürücü olması üçün ixtisarlarla o hissələrin bir qədər verilməsi məqsədəuyğun olardı. Digər halda əsərin daha yaxşı anlaşılması üçün onun kitabını sinifdənxaric oxu kimi

[108] Bakı Dövlət Universitetinin magistrantı. nubarmemmedova777@gmail.com

tövsiyə etmək olar. Beləliklə, şagirdlər qızın sonrakı taleyi, mətnin davamı haqqında öz versiyalarını səsləndirdikdən sonra onlara əsəri tam oxumaq və ya əsər əsasında çəkilən "Polyanna" filminə baxmaqları tövsiyə olunmalıdır. Əks halda mətndə bir yarımçıqlıq hiss olunacaq.

Dərsin 3-cü və 4-cü mərhələsində 8-ci və 9-cu tapşırıqlar işlənilir. 8-ci tapşırığın mahiyyəti belədir: "Hər qrup müəyyən xoşagəlməz situasiyalar fikirləşir, digər qruplar bu situasiyalarda sevinməli məqamları tapmağa çalışır" (s. 26). [Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik. Bakı: Altun kitab, 2022. s. 176]. Qruplarla iş başa tutur, şagirdlər kreativ düşüncələrini vərəqlər üzərində qeyd edirlər, sonra qruplararası fikir mübadiləsi başlayır. Müəllimin rəhbərliyi altında şagirdlər öz ideyalarını səsləndirirlər, "xoşbəxtlik oyunu"nu gerçəkləşdirirlər. Hər situasiyalar işləndikdən sonra ümumiləşdirmə aparılır. Belə ki hər nə qədər pis situasiya olursa olsun, yenə də çıxış yolu və sevinməyə bir məqam, hadisə tapmaq mümkündür və hətta vacibdir. Bu həyatlarının əsas prinsipinə, fəlsəfəsinə çevrilməlidir.

Mətnin məzmunu ilə bağlı sonuncu olan 9-cu tapşırıq işlənilir: teleqramı doldurmaq tapşırılır. Orijinal əsərdən götürülmüş məktub şagirdlərin nəzərinə çatdırılır. MMV-da əsərin orijinalında verilən məktub öz əksini tapır.Onlar orijinal əsərdə və mətndə verilən məlumatları müqayisə etməlidirlər. Sonda hər iki nümunə əsasında teleqramı doldurmalıdırlar.

Fəndaxili inteqrasiyadan istifadə edərək VI sinifdə keçilən "Atanın dərsi", "Sevinc" hekayələri xatırlanılacaq. Belə ki, bu əsərlərdə əsas fikir həyatın gətirdiyi acılara tab gətirmək, onlar qarşısında əyilməmək, sevinməyə bir səbəb axtarmaqdan ibarətdir. Şagirdlər əsərlər arasında olan ideya yaxınlığını müəyyən etməklə "Polyanna" əsərindəki əsas fikrə münasibət bildirirlər.

Növbəti dərslərdə, Elinor Porterin "Polyanna", Süleyman Sani Axundovun "Nurəddin", Mir Cəlalın "Bahar" əsərlərinin hamısı tədris olunandan sonra müqayisə zamanı şagirdlər bir sıra qənaətlərə gələcəklər. Onların bu əsərlərdən çıxardıqları nəticəni Venn-diaqramı vasitəsilə çatdıra bilərlər. Praktik məşğələdə isə həyatdan nümunə gətirib əlaqələndirməlidirlər. Obrazlar qarşılaşdırılanda belə nəticəyə gəlirik ki, Porter yetim uşağın tamamilə fərqli bir obrazını yaratdı: Polyanna çətin situasiyalarda belə şən, mehriban qalan uşaqdır. Üstəlik, onun təsiri altında ətrafdakı insanlar dəyişməyə başlayır. O bu sevinc işığını hamıya yayır. Əvvəlcə insanlar bu oyunu anlamır və qatılmırlar, sonra isə sanki Polyannanın təsiri ilə sehrlənib müsbət mənada dəyişirlər. Kitabı oxuyarkən başa düşürük ki, bu uşaq həyatda hər şeydən məhrum olmasına baxmayaraq sevinməyi bacarır. Milli ədəbiyyatımızdakı Bahar obrazı keçmişin ağrılı təcrübəsini özündə yaşatdırır. O yaşamaq istəyən uşağa zülmlər edilir, insanlıq görünmür. Əsərdə ən təsirli məqam Baharın ölümü olur. Hekayədə təsvir olunan Nurəddin düzgün tərbiyə nəticəsində nəcib, xeyirxah insan olmuşdur. Həyat onu nə qədər də çətinə salsa da, o bütün sınaqlardan insani keyfiyyətlərinin köməyi ilə çıxır. "Nurəddin" hekayəsində yazıçı "Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir" sözününün təsdiqini tapmışdır. Şagirdlər bununla müxtəlif dövrlərdə yazılmış əsərlərin və fərqli kimsəsiz uşaq obrazlarını təhlil edirlər.

Yeri gəlmişkən, onu da qeyd edək ki, psixologiyada "Polyanna prinsipi" termini də var. "Polyanna prinsipi" adını Elinor Porterin romanının baş qəhrəmanı Polyanna adlı bir qızın şərəfinə aldı. Əlavə məlumat kimi şagirdlərə danışmaq olar. "Polyanna prinsipi" termini insanın müsbət şeylərə diqqət yetirmək və söhbətdə daha müsbət sözlər və terminlərdən istifadə etmək meylinə aiddir. Ümumiyyətlə, depressiyadan əziyyət çəkməyən zehni cəhətdən sağlam insanlar, prinsipcə, mənfi cəhətlərdən daha çox müsbətlərə diqqət yetirirlər və keçmişlərindəki mənfi məqamlardan daha çox müsbətləri xatırlamağa meyillidirlər. Bir sıra mənbələrdə Polyanna sindromunun mənfi tərəfi belə vurğulanır: "…O, əksərən, valideynləri tərəfindən sevgi hiss etməyən uşaqlarda yaranır. Uşaq özünü valideynə göstərməkçün dəridən qabıqdan çıxır. Nəticədə öz şəxsi istəklərini, arzularını hiss etmək qabiliyyətini itirir" [5]. Əsərlə müqayisə etdikdə görürük ki, Polyanna bütün acılara, laqeydliyə baxmayaraq öz arzusundan, yaşamaq sevincindən əl çəkmir. Valideynləri onu sevgi ilə böyütmüşdür. Onların vəfatından sonra da Polyanna sevgi prinsipi ilə yaşamağa davam edir.

Dərsin bir mərhələsində şagirdlərə "Polyanna" əsəri üçün çəkilən illüstrasiyaları nümayiş etdirmək önəmlidir. İllüstrasiyalar bizi o dövrlə tanış edir, oxuduğumuzu görməyə imkan yaradır. Bu cür dərs şagirdlərin yaddaşında uzun müddət qalacaq.

**Nəticə**. "Polyanna" bütün yaşlar və peşələr üçün olan əsərdir. 112 il əvvəl yazılmasına baxmayaraq, yaxın zamanlarda yazılan əsər kimi qavranılır: ədəbi obrazlar və gerçəkliklər asan tanınılır. İnsanın harada yaşamasından asılı olmayaraq sevgi, mehribanlıq, ümid kimi ideyalar həmişəyaşar olacaq. Mövzunun dövrümüzdəki aktuallığı bu əsərin dərslikdə olmasının məntiqi nəticəsidir. Pedaqoji ustalıqla müəllim şagirdlərə bu mövzunu sevdirmək, onu şagirdlərin yaddaşında həkk etdirə bilmək üçün uyğun metodlar seçib tətbiq edərək dərsi aparacaq.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan dili (7-ci sinif). Müəllim üçün metodik vəsait. Bakı: Altun kitab, 2014, 176 s.
2. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik. Bakı: Altun kitab, 2022, s. 176
3. Портер Э. Поллианна. - К.: Світло на Сході, 2016. - 240 с. с ил. Издание четвертое.
4. Сухомлинский Василий Александрович. Рождение гражданина (на азербайджанском языке). Баку: Маариф, 1975, s. 364
5. https://portal.azertag.az/az/node/9298 (05.03.2025)



**Key words:** Pollyanna, literature, comparison, analysis, methods

**Ключевые слова**: Поллианна, литература, сравнение, анализ, методы


## The place of "Pollyanna" by Eleanor Porter in the textbook and the essence of the "game of happiness"

**Abstract**

The article analyzes the work “Pollyanna", included in the Azerbaijani language textbook for the 7th grade and based on the work of the same name by Eleanor Porter. The main points of the storyline of the work, the methods used in the organization of the lesson and the stages of the lesson are presented here. The text in the textbook is presented in the form of a comparison with the original work. It should be borne in mind that each text given in the textbook should correspond to the age level of the students and be organized taking into account the successful methodological abilities of the teacher. And for this, the teacher himself must work on the text, identify specific methods and be able to approach this work as a teacher. Taking into account these nuances when working on the work "Pollyanna", it is advisable to determine how appropriate it is for students, to determine the correspondence of the textbook's questions to the topic and learning outcomes. One of the goals of the research is to compare it with national literature in the context of the analysis of world literature, to identify identical themes, plots and ideals.

**Место “Поллианны” Элинор Портер в учебнике и суть “игры счастья”**

**Резюме**

В статье проанализировано произведение “Поллианна”, включенное в учебник азербайджанского языка для 7-го класса и созданное на основе одноименного произведения Элинор Портер. Здесь представлены основные моменты сюжетной линии работы, методы, используемые при организации урока и этапы урока. Текст в учебнике представлен в виде сопоставления с оригинальной работой. Необходимо учитывать, что каждый текст, приведенный в учебнике, должен соответствовать возрастному уровню учащихся, быть организован с учетом успешных методических способностей учителя. А для этого учитель сам должен работать над текстом, определять конкретные методы и уметь подходить к этой работе как педагог. Учитывая и эти нюансы при работе над произведением "Поллианна", целесообразно определить, насколько оно уместно для обучающихся, определить соответствие вопросов учебника теме, результатам обучения. Одной из целей исследования является сопоставление его с национальной литературой в контексте анализа мировой литературы, выявление идентичных тем, сюжетов и идеалов.

**RƏYÇİ: dos. E.Vəliyeva**